Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Dekabr 2023

# Tələbələr, abituriyentlər və hazırlıq dil kurslarının iştirakçıları – məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Tələbələr, abituriyentlər və ya hazırlıq dil kurslarının iştirakçılar Almaniyaya səfər edərkən, milli viza almaqdan ötrü **yalnız kənar viza xidməti olan „VisaMetric“ şirkətinə** müraciət edilməlidir. Viza sənədlərinin qəbulu mərkəzinin ünvanı:
**D. Əliyeva küç., 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/de/p/terminvereinbarung

**„Tələbə“** hesab edilən ərizəçilər o şəxslərdir ki, ali məktəbə və ya tələbə hazırlıq kurslarına qəbul haqqında sənədə (Zulassungsbescheid) və ya universitetdə təhsil almaq üçün dil hazırılıq kurslarına buraxılış sənədinə malikdirlər. **„Abituriyentlər“** isə, hər hansı bir alman ali məktəbində təhsil ilə maraqlananlar, lakin hələ ali məktəbdə və hazırlıq kurslarında təhsil almağa icazəsi olmayanlardır (məs.: Studienkolleg-ə qəbul imtahanına/ və ya universitet üçün dil hazırılıq kurslarına dəvətnaməsi olanlar) Abituriyent vizası ən çox doqquz aylıq verilə bilər, bu viza xaricilərlə iş üzrə idarə tərəfindən yalnız o zaman uzadılır ki, Siz ali məktəbə qəbul olunduğunuz haqqında sənədi təqdim edə biləsiniz.

Sənədlərə baxılma müddəti bir qayda olaraq **4-8 həftə**, Almaniya və ya Avropanın dövlət stipendiyasını alan tələbələr üçün 1 həftədən ibarətdir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi yaxud Azərbaycan vətəndaşı olmayan şəxslər üçün Azərbaycanda yaşayış icazəsini təsdiq edən vəsiqə *(əsli və 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli vizaya aid ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- 1 ədəd miqrasiya qanunun §54 maddəsinə uyğun olaraq viza prosedurunda saxta məlumatların verilməsi haqqında imzalanmış bəyannamə.
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Ali məktəbə qəbul olunma haqqında sənəd və ya alman ali məktəblərinə sənəd verməyinizi təsdiq edən sənəd (*əsli yaxud pdf formatı + 1 ədəd surəti)*
- Orta təhsil və peşə fəaliyyəti haqqında tərcümeyi-hal *(1 ədəd surəti)*
- Orta və ya ali təhsili təsdiq edən sənədlər (diplom və diploma əlavə) *(əsli + 1 ədəd surəti)*
- Ali təhsil üçün tələb olunan dil biliklərini təsdiq edən sertifikat *(əsli + 1 ədəd surəti)*
- *bəzi hallarda:* ixtisaslaşmaya dair digər təsdiqlər (məs. iş yerindən arayış) *(əsli + 1 ədəd surəti)*
- Təhsilinizə dair məlumatların qeyd olunduğu motivasiya məktubu (ixtisas sahəsi, region və s.) *(1 ədəd surəti)*
- **Yetkinlik yaşına çatmayan ərizəçilər tərəfindən təqdim edilməli sənədlər:**
  - Doğum haqqında şəhadətnamə *(2 ədəd surəti və alman dilinə tərcüməsi və notariusda təsdiqi ilə)*
  - Hər iki valideyn/qəyyum tərəfindən uşağın Almaniyada yaşamağına dair razılığını bildirən və notarius tərəfindən təsdiq edilmiş razılıq sənədi *(əsli + surəti)*

- Almaniyada təhsilinizin və yaşam xərclərinizin (birinci təhsil ili üçün) maliyyələşməsini təsdiq edən sənəd. Bu aşağıdakı kimidir:
  - **“Tələbələr”** üçün
    - Almaniyadakı dondurulmuş bank hesabında 11.208,- avro olmasını və hər ay yalnız 934,- avro götürüləcəyini təsdiq edən sənəd *( 1 ədəd surəti).*

    **və ya**
    - „Almaniyada Yaşamaq haqqında Qanunun“ 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanat (6 aydan köhnə olmamaqla; öhdəlikdə səfərin məgsədi: təhsil göstərilməlidir və ödəmə qabiliyyəti sübut olunmalıdır) *(əsli + 1 ədəd surəti)*

    **və ya**
    - Təhsil üçün hər hansı alman dövlət idarəsindən ən az 934,- avro məbləğində stipendiya alacağınızı bildirən sənəd (*əsli + 1 ədəd surəti*)
  - **„Abituriyentlər“** üçün
    - Almaniyadakı dondurulmuş bank hesabında 9,234,- avro olmasını və hər ay yalnız 1.027,- avro götürüləcəyini təsdiq edən sənəd *(1 ədəd surəti).*

    **və ya**
    - „Almaniyada Yaşamaq haqqında Qanunun“ 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanat (6 aydan köhnə olmamaqla; öhdəlikdə səfərin məgsədi: təhsil göstərilməlidir və ödəmə qabiliyyəti sübut olunmalıdır) *(əsli + 1 ədəd surəti)*
    -
- Tibbi sığorta:
  - **“Tələbələr”** - səfər üçün tibbi sığorta (İncoming-Versicherung): (90 günlük, sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı) *(əsli + 1 ədəd surəti)*
  - **„Abituriyentlər“** - səfər üçün tibbi sığorta (İncoming-Versicherung): (**ən az 9 aylıq**, sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı) *(əsli + 1 ədəd surəti)*

**Viza rəsmiləşdirilməsi proseduru zamanı yaşamaq xərcləri üçün maliyyə vəsaitinin mövcud olması dondurulmuş bank hesabı vasitəsilə sübut edilir. Dünyada belə bir servisi təklif edən bankların siyahısını isə Siz Almaniyanın Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsindən əldə edə bilərsiniz: https://www.auswaertiges-amt.de/de/sperrkonto/375488.**